

Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

№ 28-29 (7433-7434) ✲ 1933-cü ildən nəşr olunur ✲ Cümə, 9 iyun 2017-ci il. ✲ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

"Şahdəniz Mərhələ 2" üçün inşa olunan iki platformadan birinin - yaşayış blokları və texnoloji təchizat platformasının üst tikililərinin Bibiheybətdəki Azfen tikinti-quraşdırma sahəsindən Xəzər dənizindəki "Şahdəniz" müqavilə sahəsinə yolasalma mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də baş tutan həmin mərasimdə iştirak edib.

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və BP-nin Azərbaycan, Gürcüstan, Türkiyə üzrə regional prezidenti Qəri Counz əvvəlcə dövlətimizin başçısına "Şahdəniz Mərhələ 2" və "Cənub Qaz Dəhlizi" layihələri ilə bağlı görülən işlər barədə məlumat veriblər. Prezident işlərin gedişi ilə tanış olub.

* * *

Mayın 31-də Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi donanmasının "Qubadlı" və "Cəbrayıl" adlı yeni təchizat gəmilərinin istismara verilməsi mərasimi keçirilib.

Prezident İlham Əliyev mərasimdə iştirak edib.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev və SOCAR-ın prezidenti Rövnəq Abdullayev "Qubadlı" və "Cəbrayıl" təchizat gəmilərinin texniki göstəriciləri, təyinatı barədə dövlətimizin başçısını məlumatlandırıblar. Cənab İlham Əliyev gəmilərdə yaradılmış şəraitlə tanış olub.

* * *

Prezident İlham Əliyev mayın 31-də Bakıda keçirilən yüksək səviyyəli rəsmi statistiklər üçün Dayanıqlı İnkişaf Məqsədləri üzrə məlumat və statistikaya dair subregional seminarın və Azərbaycanın sədrliyi ilə Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin Statistika Xidmətləri Rəhbərləri Şurasının 57-ci iclasında iştirak edən yüksək səviyyəli rəsmi qonaqları qəbul edib.

Görüş zamanı ikitərəfli münasibətlərimizin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparılıb.

## "İlham Əliyev. İnkişaf-məqsədimizdir" çoxcildliyinin qırx birinci cildi çapdan çıxıb

"İlham Əliyev. İnkişaf-məqsədimizdir" çoxcildliyinin qırx birinci



cildi çapdan çıxıb

Çoxcildliyin bu nəşrində yer alan materiallar 2010-cu ilin mayından iyul ayınadək olan dövrü əhatə edir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin bu kitabında dövlətimizin başçısının Türkiyəyə işgüzar səfərinə, İstanbulda Türkiyə, Ukrayna, İran, Makedoniya və Rusiyanın dövlət və hökumət başçıları ilə görüşlərinə, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin üçüncü zirvə toplantısında iştirakına, habelə Rusiyaya, Ukraynaya, Gürcüstana işgüzar səfərlərinə, bu ölkələrdə keçirdiyi görüşlərə, mətbuat konfranslarında bəyanatlarla çıxışlarına dair materiallar toplanıb.

Həmçinin Serbiya, Belarus, Bolqarıstan, Mavritaniya prezidentlərinin, İordaniya Kralının, Türkiyənin Baş nazirinin Azərbaycana səfərləri zamanı Prezident İlham Əliyevin apardığı danışıqlara, ölkələr arasında imzalanmış sənədlərə dair materiallar çoxcildliyin bu kitabına daxil edilib.

Dövlətimizin başçısının ABŞ, Çexiya, Avstriya, İran, Albaniya, Gürcüstan, Portuqaliya, Ukrayna və digər ölkələrdən, habelə BMT-nin, Avropa İttifaqının, ATƏT-in, Avropa Yenidənqurma və İnkişaf Bankının, beynəlxalq şirkətlərin Azərbaycana gəlmiş yüksək vəzifəli və nüfuzlu şəxslərini qəbul etməsinə dair materiallar da bu kitabda yer alıb.

Çoxcildliyin 41-ci kitabında Azərbaycan Prezidentinin Avropa Şurasına üzv dövlətlərin gender bərabərliyinə həsr olunmuş VII konfransının iştirakçılarına müraciəti, Bakıda İslam İnkişaf Bankının 35-ci illik toplantısının açılış mərasimində nitqi, müxtəlif məktubları toplanıb.

Nəşrin bu cildində dövlətimizin başçısının Lənkəran, Lerik, Zaqatala, Balakən rayonlarına səfərlərinə, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallar, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsinə həsr olunmuş çıxışları, respublikamızın paytaxtında aparılan abadlıq-quruculuq işləri ilə yaxından tanış olmasına dair informasiyalar da verilib.

# Dünya Kuboku yarışlarına start verildi

Gənclər və İdman Nazirliyinin dəstəyi, "Qəbələ" Atıcılıq Klubunun və Azərbaycan Atıcılıq Federasiyasının təşkilatçılığı ilə iyunun 14-dək Qəbələdə keçiriləcək olimpiya atıcılıq növləri üzrə Dünya Kuboku yarışlarının rəsmi açılış mərasimi olub.

Heydər Əliyev Konqres Mərkəzində keçirilən mərasimdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Beynəlxalq İdman Atıcılıq Federasiyasının və 45 ölkənin atıcılıq federasiyalarının nümayəndələrinin iştirak etdiyi tədbirdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev idmançıları və qonaqları salamlayaraq, bu beynəlxalq yarışın Qəbələdə keçirilməsindən məmnunluq duyduğunu bildirib. O, Azərbaycanda idmanın



maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində görülən işlərdən, Prezident İlham Əliyev tərəfindən idmançılara göstərilən diqqət və qayğıdan, qazanılan uğurlardan danışıb, idman ölkəsi olan Azərbaycanda mötəbər beynəlxalq idman tədbirləri keçirilməsinin ənənə halını aldığını qeyd edib. Səbuhi Abdullayev bir müddət öncə Bakıda keçirilən və hamının maraqla izlədiyi IV İslam Həmrəyliyi Oyunlarında respublikamızın idmançılarının bütün növlər üzrə çox böyük uğurlar qazanaraq, 162 medala sahib olduğunu bildirib. Oyunlarda "Qəbələ" İdman Klubunun üzvlərinin rayonumuzun idman şərəfini ləyaqətlə qoruduqlarını və yüksək nəticələr göstərdiklərini vurğulayıb. Yığmamızın heyətində 7 idman növündə mübarizə aparan 18 təmsilçimizin komanda yarışında qazanılan medallar da nəzərə alınmaqla 19 mükafata yiyələndiyini, bunlardan 8-nin qızıl, 9-nun gümüş, 2-nin bürünc medallar olduğunu diqqətə çatdırıb. Səbuhi Abdullayev bu uğurların Azərbaycanın təkcə sosial-iqtisadi sahədə yox, həm də idman sahəsində bölgənin lider dövləti olduğunun əyani göstəricisi kimi dəyərləndirib və çıxışının sonunda idmançılara gərgin idman mübarizəsində uğurlar arzulayıb.

"Qəbələ" Atıcılıq Klubunun vitse-prezidenti Elvin İsmayılov çıxışında Azərbaycanın artıq 4 ildir



olimpiya atıcılıq növləri üzrə Dünya Kuboku yarışlarına ev sahibliyi etdiyini qeyd edib. O, Respublikamızda keçirilən ən böyük idman tədbirlərindən hesab olunan güllə atıcılığı üzrə Dünya Kuboku yarışlarının Qəbələdə təşkil edilməsinin Azərbaycanda aparılan uğurlu idman siyasətinin nailiyyətlərindən olduğunu vurğulayıb və bu yarışların Qəbələnin dünyada tanınmasına böyük töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Beynəlxalq İdman Atıcılıq Federasiyasının məsul işçisi, atıcılıq üzrə Dünya Kuboku yarışlarının texniki direktoru Piter Anderhel çıxış edərək bildirib ki, ötən 4 il ərzində Qəbələdə keçirilən atıcılıq üzrə Dünya Kuboku və Qran-Pri yarışları çox yüksək səviyyədə təşkil olunub.

Dünya Kuboku uğrunda yarışların 4 mərhələsi ilin əvvəlindən bəri Almaniya, Hindistan, Kipr və Meksikada keçirilib. Yarışların Qəbələ mərhələsinə iyunun 8-də Qəbələ Stend və Ox Atıcılığı Kompleksində start verilib. İyunun 14-dək davam edəcək yarışda güllə atıcıları 10 dəst medal uğrunda mübarizə aparacaqlar. İdmançılar tapança və tüfəngdən 10, 25 və 50 metr məsafəyə atəş açaraq hədəfi vurmaq uğrunda bacarıqlarını nümayiş etdirəcəklər. Yarışların final mərhələsi isə bu ilin oktyabrında Hindistanda keçiriləcək.

Çıxışlardan sonra yarışların rəsmi açılışı elan edilib və Beynəlxalq İdman Atıcılıq Federasiyasının himni səsləndirilib.

Tədbir konsert proqramı ilə davam etdirilib.

**«Qəbələ».**